# HACIQABUL

№ 10 (690)

12 may 2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Tarixin dahi Azərbaycanlısı

## *Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi Hacıqabulda təntənə ilə qeyd edildi*





Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində özünəməxsus yer tutan nadir tarixi şəxsiyyətlərdəndir. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, respublikada strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması məhz ötən əsrin 70-80-çı illərinə təsadüf edir. Ümummilli liderin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olundu, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırıldı.

Dahi şəxsiyyət Azərbaycana rəhbərliyi illərində respublikamızın inkişaf tempinin, genişmiqyaslı quruculuq işlərinin ardıcıl xarakter alması üçün genişmiqyaslı islahatlar reallaşdırdı. Onun həyata keçirdiyi iri layihələrin icrası sayəsində iqtisadiyyatın bütün sahələri əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamışdır.

Bu gün Azərbaycan dünya miqyasında öndə gedən dövlətlər sırasında məğrur dayanır.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında həm böyük siyasətçi, həm də qətiyyətli, uzaqgörən dövlət başçısı kimi qalmışdır. Azərbaycan tarixinin ən çətin dönəmlərində ölkəmizin və xalqımızın istəyi və xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış ulu öndər Azərbaycanı dünya arenasında qüdrətli bir dövlət kimi tanıdan, bütün ömrünü, həyatını respublikamızın inkişafına və çiçəklənməsinə həsr edən xalqımızın tarixi şəxsiyyəti kimi daim yaddaşlarda yaşayacaq. Xalqı, milləti azadlığa, dövləti istiqlaliyyətə qovuşduran, uzaqgörənliyi, fədakarlığı, insanlara məhəbbəti ilə seçilən Heydər Əliyev doğma Vətəninin dünyanın ən nüfuzlu, dinamik inkişafda olan dövlətlər sırasına yüksəlməsi üçün çalışdı, siyasi iradə nümayiş etdirdi. Azərbaycanın bugünkü inkişaf göstəriciləri ulu öndərin uzaqgörən siyasi təfəkkürünün bəhrəsidir ki, Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir.

Dahi şəxsiyyət Heydər Əliyevin dünyaya gəlişi hər il ölkənin dörd bir yanında böyük təntənə ilə qeyd olunur.

May ayının 10-da rayonumuzda ulu öndərin 95 illik yubileyi münasibətilə bayram şənliyi təşkil olunmuşdu. Səhər saatları ndan başlayan izdiham, şəhər sakinlərinin dəstə-dəstə ulu öndərin adını daşıyan parka gəlişi axşama kimi davam etdi.

Şənliyə qatılan rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə rəhbərləri və əmək kollektivləri ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül təstələri düzdülər.dahi şəxsiyyətə ehtiramlarını bildirdilər. Sonra RİH başçısı parkda təşkil olunmuş X ümumrespublika kitab bayramında iştirak etdi. Burada sərgilənən kitab nümunələri, məktəblilərin əl işlərindən ibarət rəsm və əl işlərindən nümunələr insanlara xoş əhval-ruhiyyə bəxş edirdi.

Axşam saatlarında isə parkda respublikamızın tanınmış mədəniyyət və incəsənət ustalarının konserti oldu.

Konsert proqramı atəşfəşanlıqla sona çatdı.

***"Hacıqabul"***











# RİH Başçısının səyyar görüş-qəbulları davam edir



Mayın 11-də rayon İcra Hakimiyyəti başçısının Hacıqabul şəhərində növbəti səyyar qəbul-görüşü keçirilmişdir.

Tədbirdə rayonun idarə, müəssisə və təşkilat rəhbərləri və şəhər sakinləri iştirak etmişdir. Rayon İcra Hakimiyyətinin başçısı çıxış edərək son illərdə rayonun sosial-iqtisadi inkişafından, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə şəhər sakinlərinə məlumat verdi. Görüş zamanı şəhər sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alındı və icrası ilə əlaqədar yerində aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verildi.



Şəhər sakinləri yerlərdə keçirilən görüşlərdən razı qaldıqlarını qeyd edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

* * *

RİH Başçısı Əhməd Muxtarovun daha bir səyyar qəbulu mayın 4-də rayonun Qızılburun kəndində keçirildi. Kənd orta məktəbində keçirilən qəbulda kənd sakinləri iştirak edirdi. Kənd sakinlərinin sosial durumu, iş, məişət şəraiti ilə maraqlanmaq, onların üzləşdiyi bəzi problemləri yerindəcə həll etmək məqsədi ilə görüşə gəlmiş RİH Başçısı Əhməd Muxtarovu və rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət idarələrinin rəhbərlərini qəbul iştirakçıları razılıqla qarşıladı.

RİH Başçısı qəbula gələnləri səmimi salamladıqdan sonra kənd sakinlərinin problemlərini, arzu və təkliflərini dinlədi.

Öncə kənd sakini Əzizağa Əhmədov söz alaraq kənddə içməli su problemindən danışdı. Qeyd etdi ki, su boruları artıq köhnəlib, istismar müddətini başa vurub. Uzun illər bundan əvvəl çəkilmiş borular bu gün yararsız hala düşüb. Kənd sakinləri adından köməklik göstərilməsini xahiş etdi. Digər kənd sakinləri Şahkərəm Novruzov isə kənddə telefon xəttinin, dayaqların olmamasından, Mirabbas Soltanov işıq dirəklərinin köhnə olmasından, işıqların tez-tez sönməsindən, Vüqar Soltanov kənddə MilliÖn və bankomat problemi yaşadıqlarından və salınacaq sənaye məhəllələrində kənd cavanlarını işə cəlb etməkdən, Babayev Xalid isə əkin suyunun olmamasından, bunun nəticəsində isə məhsuldarlığın aşağı düşməsindən danışaraq köməklik göstərilməsini xahiş etdilər.

RİH Başçısı kənd sakinlərinin bütün müraciət, problem və xahişlərini dinlədikdən sonra həlli üçün aidiyyatı təşkilatlara tapşırıq və tövsiyyələrini verdi.

*"Hacıqabul"*

# Böyük Qələbənin 73 illiyi qeyd olundu

9 May Qələbə bayramı münasibətilə şəhər Folklor klubunda tədbir keçirildi. Tədbirdə müharibə veteranları, onların ailə üzvləri, rayon ictimaiyyətinin nümayəndələri, idarə və təşkilatların əməkdaşları, ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri iştirak edirdi. Tədbirdə çıxış edən RİHBA-nın məsul işçisi İmaməddin İmanov, Müharibə, Əmək və Silahlı Qüvvələr-Veteranları təşkilatının sədri Əlibala Hüseynov, Ağsaqqallar Şurasının sədri Abdulla Zülfüqarov, Əmək veteranı Alişan Səfərov, Mübariz Xəlilov, Qarabağ qaziləri, veteranlar, onların yaxınları çıxış edərək bildirdilər ki, bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalan İkinci Dünya müharibəsi 9 may 1945-ci ildə SSRİ-nin qələbəsi ilə başa çatıb və faşizm süqut edib. Azərbaycan faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Həmçinin, Hacıqabuldan da 4200 nəfər müharibəyə gedib. Onlardan 21 nəfəri arxa cəbhə veteranıdır. 1820 hacıqabullu müharibədən geri qayıtmayıb.

Tədbirin gedişi ərzində Respublika Veteranları təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynun tədbir iştirakçılarına teleqramını veteranlar Şurasının üzvü Telman Cəfərov səsləndirdi.

Sonda xatirə şəkilləri çəkildi.

*"Hacıqabul"*

## *Azərbaycan Xalq Cümhuriyyəti - 100*

# 100 il öncə Azərbaycana doğan 28 may günəşi

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan AXC cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun müqəddəratını təyin etməyə qadir olduğunu təsdiqlədi. Qısa vaxt ərzində Azərbaycan Xalq Cümhuriyyəti bir çox sahələrdə həyata keçirdiyi islahatlarla ölkə tarixində mühüm bir mərhələnin əsasını qoydu. Həmin dövrdə demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı əhəmiyyətli addımlarla qısa müddətdə xalqımızın tarixində silinməz iz buraxaraq milli dövlətçilik ənənələrinin formalaşdırılması işində böyük rol oynadı. Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi. Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə qəlbində və şüurunda yaşatdı. Xüsusən, ümummilli lider Heydər Əliyevin respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytaracaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. Ümummilli lider Heydər Əliyevin güclü iradəsi, uzaqgörən siyasəti Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi və beləliklə, ölkədə dövlətçiliyin yeni inkişaf mərhələsi başladı. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müasir inkişaf strategiyası Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi.

Bu gün respublikamız Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunmuş rayon tədbirlərinin hazırlanıb keçirilməsini təşkil etmək məqsədi ilə rayonumuzda da bununla əlaqədar rayon komissiyası yaradılması və Tədbirlər Planının təsdiq edilməsi barədə rayon İcra Hakimiyyətinin Başçısı Sərəncam imzalamışdır.

Tədbirlər Planına uyğun olaraq 28 may tarixinə qədər rayonun idarə və təşkilatlarında, muzey və Heydər Əliyev Mərkəzində, mədəniyyət evlərində, ümumtəhsil məktəblərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi və milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlərin nümayişi nəzərdə tutulmuşdur.

Eyni zamanda, "Bir kərə yüksələn bayraq bir daha enməz" adlı inşa müsabiqəsinin, müxtəlif idman yarışlarının, rəsm sərgisinin, "İlk Cümhuriyyətin tarixi" adlı intellektual bilik yarışının ,""Şərqin ilk demokratik respublikası-Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda dəyirmi masanın keçirilməsi nəzərdə tutulmuşdur.

Artıq Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə bağlı idarə və müəssisələrdə, əmək kollektivlərində tədbirlər davam etməkdədir.

*"Hacıqabul"*



# Uğurların bol olsun, Mədinə!

Həsənli Mədinə Natiq qızı şəhər 9 saylı tam orta məktəbin II sinfində təhsil alır. Onun 8 yaşı olmasına baxmayaraq, öz istedadı ilə yaşıdlarından fərqlənir.Məktəbdə oxuduğu 2 il ərzində məktəb və rayon üzrə keçirilən şeir müsabiqələrində müxtəlif diplomlara layiq görülmüşdür.Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tapşırığına əsasən adı dünyanın ölməz sənatkarları sırasında yer tutan, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən qüdrətli sənətkar İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkilatçılığı ilə uşaq və məktəblilər arasında keçirilən şeir müsabiqəsində Həsənli Mədinə I yerə layiq görülərək mərhələyə keçmişdir.

Bu günlərdə Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsi II mərhələni həyata keçirmişdir. Balaca Mədinə II turda da qələbə qazanaraq, respublika mərhələsinə layiq görülmüşdür.Mədinəyə bu mərhələdə də uğur qazanmağı arzulayırıq.

***Aysel İbadova,***
***şəhər 9 saylı tam orta məktəbin***
***Uşaq Birliyi Rəhbəri***

## *Aqrar sahə*

# Navahıda ilk dəfə pampıq əkilir

Rayonumuzun Navahı kəndi hər zaman torpaqlarının bərəkətliliyi, insanlarının zəhmətsevərliyi, taxılçılığı, insanlarının elmə, təhsilə həvəsi ilə seçilmişdir. Uzun illər kənd camaatı taxılçılıq və heyvandarlıqla məşğul olmuşdur. Bu il isə



Navahı kəndində ilk dəfə olaraq pambıq əkilmişdir. Kəndin torpaq mülkiyyətçiləri Hüseyn İsmayilov və Mayıl Tapdıqov bu il hər biri 10 hektar ərazidə pambıq əkmişlər. Ümumən Navahı ərazisində 20 hektar sahədə pambıq əkilmişdir. Fermer Hüseyn İsmaylov söyləyir ki, Respublika Prezidenti cənab İlham Əliyevin ənənəvi sahə kimi pambıqçılığı dirçəltmək, onu inkişaf etdirmək barədə çağırışına bir torpaq mülkiyyətçisi kimi mən də biganə qala bilmədim. Dövlət başçısının bu nəcib təşəbbüsünə ürəkdən qoşuldum. Doğrudan da, pambıq ölkəmizin inkişafı üçün mühüm və əhəmiyyətli bitkidir. Öhdəyə götürdüyüm 10 ha sahə mexanizator Sərxan Atakişiyev tərəfindən şumlanmış, malalanmış, arxlar çəkilmişdir. Çiyid səpininə may ayının ilk günlərində başlamışıq. Suçu Azər Qaçayev pambıq əkilən torpaqlarda birinci suvarmanı aqrotexniki tələblər səviyyəsində aparmışdır.

Digər Navahı kənd sakini, fermer Mayıl Tapdıqov söhbət zamanı bildirdi ki, pambıq çox su tələb edən, istiliksevən bitkidir. Navahının torpaq relyefində bu bitkini becərmə dövründə ən azı 4 dəfə suvarmaq lazımdır. Hələlik birinci suvarmanı başa çatdırmışıq. Mexanizator Qanı Babayev ərazini keyfiyyətlə şumlamış, malalamış, arxları çəkmişdir. Suçu İntiqam Tapdıqov çiyid səpilən ərazidə 1-ci suvarmanı müvəffəqiyyətlə başa çatdırmışdır. Biz pambığın yetişkənlik dövrünə qədər becərmə işlərini yüksək keyfiyyətlə, aqrotexniki qaydada aparmaq üçün qüvvələri səfərbərliyə almışıq. Çalışacağıq ki, cənab Prezidentin ölkə pambıqçıları qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsinə biz də öz layiqli töhfəmizi verək.

***Nazim Fətixanoğlu***

# Azərbaycanın inkişaf strateqiyasında Heydər Əliyev irsi

***Bu il dahi şəxsiyyət, Ümummilli Lider, müasir Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyevin 95 illik yubileyi qeyd olundu***

Bəşəriyyətin çoxəsrlik tarixinə nəzər saldıqda liderlərin xalqların və dövlətlərin inkişafında çox böyük rolu olmasını görmüş olarıq. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Azərbaycan xalqının tarixində də belə liderlər yetişmiş, onlar Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Bu liderlər arasında öz işıqlıəməlləri ilə xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində mühüm xidmətləri olmuşümummilli lider Heydər Əliyevin adı xüsusi qürur hissi iləçəkilir. Azərbaycanın tarixi şəxsiyyətlərinin fövqündə yer alan bu dahi insanın xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan dövlətinin, müstəqilliyinin mövcudluğu üçün xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur. Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən, ən böyük azərbaycanlı, bizim üçün həmişəeziz və unudulmaz olan Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi iləəlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq misilsiz irəliləyişə nail olmuşdur.

Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafıüçün tarixi xidmətləri olmuşdur. O zamanlar hər bir mühüm məsələ SSRİ dövlətinin nəzarətindəolmuş, lider kimi fəaliyyət göstərmək üçün çoxlu məhdudiyyətlər var idi. 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev də bütün bu məhdudiyyətlərlə, çətinliklərləüzləşməli oldu. Üstəlik də respublika iqtisadiyyatında, sözün əsl mənasında, ağır vəziyyət yaranmışdı: bütün əsas sosial-iqtisadi göstəricilərə görə Azərbaycan ittifaqda axırıncı yeri tuturdu. Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırdı və qısa vaxt ərzində sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarın qəbul edilməsinə nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik aradan qaldırıldı, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü. Bu strateji xətti həyata keçirmək üçün Heydər Əliyev titanik fəaliyyət göstərdi, ciddi maneələrin aradan qaldırılmasına nail oldu.

1976-1980-ci illərdə Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerəçıxdı. Sənayenin strukturunda maşınqayırma və metal emalı sənayesinin payı 1965-ci ildəki 10 faizdən 16,3 faizə qalxdı. Elmi-texniki tərəqqini müəyyən edən sənaye sahələrində istehsalın həcmi əvvəlki onillikdəki səviyyəyənisbətən 2,4 dəfə artdı. 1970-ci illər Azərbaycan tarixinə, sözün əsl mənasında, sənayenin intibah dövrü kimi daxil oldu.

70-ci illərdə yaradılmış, elmi-texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklər, problemlərləüzləşə bilərdi. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdıqda, respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, xalqın mentalitetinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı, düşünülmüş vəəsaslandırılmış sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlar, inkişaf etmişölkələrləəməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi.

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft amilinəüstünlük verdi. Bu, yeganəçıxış yolu idi. Bu, dünya inteqrasiyasına qovuşmaq, maliyyə imkanları, demək olar ki, tükənmiş respublikaya investisiyaların cəlb edilməsi yolu idi. 1994-cü ildə Azərbaycan dünyanın böyük neft şirkətləri ilə“Əsrin müqaviləsi”ni imzaladı. “Bu, müstəqil Azərbaycan dövlətinin, onun prezidentinin tarixi uğuru idi. Bu, eyni zamanda, Azərbaycanın dünya inteqrasiyasında fəal iştirakıüçün əlverişli imkanların yaradılması idi.

Bu gün Azərbaycan dövləti çoxsaylı alternativ neft-qaz ixracı ilə bağlı nəql marşrutlarına malikdir. Bu isəölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi və bu da öz müsbət nəticələrini verir.

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəlişüçün zəmin yaradılmasınıözünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi. Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdəölkəmizdə hökm sürən hərcmərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Ulu öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

Bu sahədə atılan ardıcıl addımlara nəzər yetirdikdə görəbilərik ki, məhz Ulu Öndərin siyasi iradəsi nəticəsində 1993-cü ilin iyun ayından ölkəmizdəölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdəölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli liderin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: “Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdəölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”.

Hüquq islahatları sahəsindəçox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı“Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında” sərəncamdır. Bu sənədəəsasən beynəlxalq standartlara uyğun “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında” qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb Milli Məclisdə müzakirə edilmiş və müvafiq qaydada qəbul olunmuşdur.

Böyük öndərimizin 22 fevral 1998-ci il tarixli “İnsan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanı da hüquq islahatları baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənədlərdəndir. Bu fərmanda ölkəmizdə insan hüquq və azadlıqlarının cəmiyyətimizdəəsas meyar olduğu xüsusilə vurğulanmış, icra strukturlarının vəzifələri müəyyən edilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdəölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər də qəbul olunmuşdur. Parlament bu sahədə “İnsan hüquqlarının vəəsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanı, “İşgəncələrin və qeyriinsani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasını, “Yerli özünüidarəetmə haqqında” Avropa Xartiyasını təsdiq edən sənədləri, “Vətəndaşlıq haqqında”, “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Dini etiqad azadlığı haqqında” qanunları qəbul etmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən bir neçə Konstitusiya qanunu da qəbul etmişdir. Bunlar “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında”, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında”, “Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Konstitusiya qanunlarından ibarətdir.

90-cı illərin əvvəlində həlli vacib olan və daimi ölkə başçısının diqqətində olan məsələlərdən biri, davam etməkdə olan, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Ölkənin ərazi bütövlüyünü qorunması, daxili ictimai sabitliyinə nail olunması üçün münaqişənin gedişinə təsir göstərə biləcək qəti addımlar atılmalı idi. Məhz ölkə başçısının atmış olduğu qətiyyətli addımların nəticəsində Milli Ordunun döyüş qabiliyyətinin artırılması və genişmiqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyatın aparılması mümkün olmuşdur.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüşərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd, rayon vəşəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur.

Müstəqil dövlətçiliyimizin banisi, müasir Azərbaycanın memarı, böyük öndərimiz Heydər Əliyev tərəfindənDövlətimizin uğurla inkişaf edilməsi üçün müxtəlif sahələrdə təməli qoyulmuş siyasi xətti möhtərəm Prezidentimizİlham Əliyev tərəfindən uğurla davam etdirilir. O, xalqimiza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulmasıüçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Sadalanan məqamlar bir daha onu sübut edir ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən müstəqil Azərbaycanın hüquqi, dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderimizin xidmətləri əvəzsizdir. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı vəölməz ruhu qarşısında müqəddəs borcu onun əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətindəözünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir.

***Rövşən Maqsudov,***
***rayon prokuroru***




# Heydər Əliyev irsi öyrənilir və təbliğ edilir

Həyatının mənasını xalqına, millətinə xidmətdə görən, “Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir” deyən Ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi və təbliğ edilməsi böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna rol oynayır. Son illərdə Respublikanın ümumtəhsil məktəblərində Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar “Ən yaxşı təqdimat” müsabiqəsinin keçirilməsi bu yolda atılan ən mühüm addımlardan biridir. Belə ki, 2016-cı ildə ulu öndərin anadan olmasının 93-cü ildönümü ilə bağlı “Ən yaxşı təqdimat” müsabiqəsi elan edildikdən sonra rayonun bütün ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri ilə yanaşı S. Gülmalıyev adına Udulu kənd tam orta məktəbinin şagirdləri də müsabiqəyə ciddi hazırlaşmağa başladılar. Bu hazırlığın nəticəsi olaraq məktəbin IX sinif şagirdi Məmmədova Nahidə Umud qızı müsabiqənin rayon turunda birinci yerə çıxaraq müsabiqənin Respublika turuna vəsiqə qazanmış oldu. “Ən yaxşı təqdimat” müsabiqəsinin respublika turunda Nahidə uğurla çıxış edərək müsabiqənin 3-cü dərəcəli diplomuna layiq görüldü. Bu qələbə Udulu kənd tam orta məktəbinin şagirdləri arasında böyük ruh yüksəkliyinə səbəb oldu. Növbəti ildə, yəni 2017-ci ildə Heydər Əliyevin anadan olmasının 94- cü ildönümü ilə bağlı “Ən yaxşı təqdimat” müsabiqəsində də məktəbimizin X sinif şagirdi Məmmədova Nahidə Umud qızı uğurunu təzələdi. Belə ki, o, müsabiqənin Respublika turunda Hacıqabul rayon ümumtəhsil məktəblərinin şagirdlərinə sevinc bəxş edərək yenə də 3-cü dərəcəli diploma layiq görülərək qiymətli hədiyyə ilə təltif olundu. İki il dalbadal məktəbimizin şagirdinin qələbəsi bizim S. Gülmalıyev adına Udulu kənd tam orta məktəbinin kollektivinin məsuliyyətini daha da artırdı. 2018-ci ildə Heydər Əliyevin anadan olmasının 95- cü ildönümü ilə bağlı “Ən yaxşı təqdimat” müsabiqəsinin məktəb turunda IX sinif şagirdləri Əsədova Səbinə Abbasəli qızı və Rzayeva Səadət Sadıq qızı daha yaxşı çıxış edərək müsabiqənin rayon turuna təqdim edildilər. Müsabiqənin rayon turunda Səbinə Əsədovanın çıxışı yüksək qiymətləndirildi. Müsabiqənin Respublika turuna vəsiqə alan Səbinə 2018-ci ilin aprel ayında Təhsil Nazirliyində keçirilən müsabiqədə daha cəsarətli və məntiqli çıxışı ilə I yerə layiq görüldü.

Müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi 2018-ci il mayın 4-də möhtəşəm Heydər Əliyev Mərkəzində keçirildi. Məktəbimizin IX sinif şagirdi Səbinə Əsədova I dərəcəli diploma və qiymətli hədiyyə ilə mükafatlandırıldı.

Səbinənin arzuları böyükdür. Bunlardan ən ümdəsi ali məktəbə qəbul olmaqdır. Ulu tanrıdan Səbinənin bütün arzularının reallaşmasını arzu edirik.

***E.Rzayev,***
***S. Gülmalıyev adına Udulu kənd tam orta məktəbinin tədris işləri üzrə direktor müavini***




Şəhər 1 saylı tam orta məktəbdə “Milyonların yaddaşında yaşayan insan” adlı tədbir keçirildi.

Tədbirdə dahi şəxsiyyət Heydər Əliyevin mənalı ömür yolundan söhbət açıldı. Məktəbin şagirdlərinin ifasında ulu öndərə həsr olunmuş şeirlər və mahnılar səsləndi.

# HACIQABUL

№ 10 (690) 12 may 2018-ci il


## 2018-ci ilin may ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssislər

● 2018-ci il üzrə Torpaq vergisinin bəyannaməsini cari ilin may ayının 15-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

● 2018-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin cari ödəmələrini cari ilin may ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

2018-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları

● Əlavə dəyər vergisinin bəyannaməsini,

● Aksiz bəyannaməsini,

● Yol vergisinin bəyannaməsini,

● Mədən vergisinin bəyannaməsini,

● Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və

● Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin may ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

● Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin may ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

● Muzdlu işlə əlaqədar 2018-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannaməniillik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 2-ci rübü üzrə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

● Xüsusi notariusların 2018-ci ilin aprel ayı üzrə hesabladığı gəlir vergisi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

*5 saylı Ərazi Vergilər İdarəsi*

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi işə qəbulla bağlı müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin, "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları"nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka bir qayda olaraq aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Dünya iqtisadiyyatı;
4. Maliyyə;
5. İqtisadiyyat;
6. Statistika;
7. Beynəlxalq iqtisadi münasibətlər;
8. Mühasibat uçotu və audit;
9. Maliyyə və kredit;
10. İqtisadiyyatın tənzimlənməsi;
11. Qiymət və qiymətin əmələ gəlməsi;
12. Xəzinə əməliyyatlarının uçotu;
13. İqtisadi nəzəriyyə;
14. Vergilər və vergitutma;
15. İqtisadi siyasət;
16. Dünya iqtisadiyyatında informasiya texnologiyaları;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. Gömrük işinin təşkili;
21. Gömrük ekspertizası (sahələr üzrə);
22. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
23. Vergi işinin təşkili və idarə edilməsi;
24. Tətbiqi riyaziyyat;
25. Avtomatlaşdırılmış layihələndirmə sistemləri (sahələr üzrə);
26. İnformasiya işlənməsinin və idarəetmənin avtomatlaşdırılmış sistemləri (sahələr üzrə);
27. Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı;
28. Məlumatların mühafizəsinin texnologiyası və təşkili;
29. Avtomatlaşdırma və informasiya texnikası.

"Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin 9-cu maddəsinə əsasən vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə əlavə sənəd qəbulu elektron ərizə vasitəsilə 26.04.2018-ci il saat 10:00-dan 09.05.2018-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə olunmalıdır. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul edilərsə namizədin iş nömrəsi və test imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

Qeyd: Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar 05-30 dekabr 2017-ci il tarixlərdə qeydiyyatdan keçmiş və elektron ərizələri qəbul edilmiş vətəndaşların müsabiqədə iştirak hüququ saxlanılır.

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda 012-403-81-35 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Elektron ərizə vermiş namizədlər 23-25.05.2018-ci il tarixdə (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 26.05.2018-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını özündə əks etdirən yenilənmiş ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) "İşə qəbul. Müsabiqələr" bölməsində yerləşdiriləcəkdir.

Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının "Əlavə qeydlər" hissəsində göstərməlidir.

Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

## Təbrik edirik!



Ağayev Əhmədağa Sübhan oğlu 1958-ci il mayın 20-də Hacıqabul rayonunun Meyniman kəndində anadan olmuşdur. 1978-ci ildə Sumqayıt Politexnik Texnikumunun "Avtomobillərin təmiri və texniki qulluq" fakültəsini, 1986-cı ildə H.B, Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitunun ümumi texniki fənlər fakültəsini bitirmişdir.

1982-ci ildən 2007-ci ilə kimi Şirvan şəhər Avtomobil Məktəbində nəzəri dərs müəllimi kimi fəaliyyət göstərmişdir.

2007-ci ildən bu günə kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzdində "Hərbi vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" MMC-nin Hacıqabul rayon filialının direktorudur. İşində məsuliyyətliliyi və tələbkarlığına görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərman, təşəkkür və mükafatlara layiq görülmüşdür.

Əhmədağa Ağayev ailəlidir. 4 övladı, 6 nəvəsi var.

60 illik yubileyi ərəfəsində "Hərbi vətənpərvərlik və mütəxəssis hazırlığı Mərkəzi" MMC-nin kollektivi onu təbrik edir, ona sağlam həyat, işlərində uğurlar arzulayırlar. Bu təbriklərə övladları, nəvələri, yaxınları da qoşulurlar.



Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar rayonun Rəncbər kənd, Navahi qəsəbə və Pir Hüseyn Xanəgahında kitab sərgisi keçirilmişdir.

## Mirzə Baxış Nadimin "Seçilmiş əsərləri" kitabının təqdimatı keçirilmişdir

Bu günlərdə rayonun Navahi kənd mədəniyyət evində əslən bu kənddən olan XIX əsr klassik şairi Mirzə Baxış Nadimin yenicə çapdan çıxmış "Seçilmiş əsərləri"nin təqdimatı mərasimi keçirilmişdir.

Rayon mədəniyyət müəssisələrinin müştərək təşkilatçılığı ilə keçirilmiş tədbirdə mədəniyyət işçilərilə bərabər, kənd sakinləri, eləcə də qonaqlar, o cümlədən kitabın tərtibatçılarından biri - Respublika Əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Paşa Kərimov iştirak etmişdir.

Tədbiri giriş sözü ilə Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsinin rayon üzrə nümayəndəsi Elnur Əmiraslanov açmışdır.

Müəllim-şair Əmrah Əmrahov (Şirvanlı), rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Məhəmməd İsayev, kitabın tərtibçisi Paşa Kərimov, Mübariz Xəlilov kitab haqqında, Mirzə Baxış Nadimin həyatı, yaradıcılığı barəsində ətraflı çıxışlar etmişlər.

Mədəniyyət işçilərindən Sücaət Həsənova və Gülzadə Rəşidova şairin qəzəllərindən, şəhər 3 saylı tam orta məktəbin şagirdləri dini şeirlərindən nümunələri bədii qiraətlə oxumuş, xanəndə Hacağa Teymurov isə qəzəllərindən ifa etmişdir.

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 28 aprel 1998-ci il tarixli qərarı ilə İmanov Ələkbər Həbib oğlunun adına verilmiş JN-003F. kodu 91008068 olan Torpağı mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Muğan qəsəbə sakini Novruzov Mahir Əhməd oğlunun adına verilmiş JN-756 saylı Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı

İndeks: 66975

Lisenziya: № 022579

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.

**Tel:** 4-32-00,

**Tiraj:** 1200